Respublika .- 2025.- 11 mart, (№ 53).

GÜNÜN SİYASİ NƏBZİ




# Azərbaycan-Türkiyə münasibətləri yüksələn xətlə davam edir



*Azərbaycan-Türkiyə münasibətləri müasir dövrdə strateji əhəmiyyət daşıyan, dostluq və qardaşlıq prinsiplərinə əsaslanan çoxşaxəli əlaqələr kimi xarakterizə olunur. Beynəlxalq münasibətlər sisteminə nəzər yetirdikdə, bu cür prinsiplərə söykənən və bu kontekstdə səciyyələndirilən dövlətlər o qədər də çox deyil. Azərbaycanla Türkiyə arasında belə möhkəm münasibətlərin formalaşması, şübhəsiz ki, onların dərin tarixi və mədəni bağlarına əsaslanır. Bu da öz növbəsində əlaqələrin getdikcə daha da güclənməsinə səbəb olur. Əgər müxtəlif sahələrə, o cümlədən siyasət və iqtisadiyyata nəzər salsaq, bu münasibətlərin dinamik inkişaf etdiyini aydın şəkildə görmək mümkündür.*



Azərbaycan və Türkiyə arasındakı münasibətlər təhlükəsizlik, mədəniyyət və bir sıra digər mühüm sahələrdə özünü büruzə verir. Bu münasibətlər qarşılıqlı etimad, etibar və dəstək prinsiplərinə əsaslanır. Rəsmi Bakı və Ankara arasında siyasi əməkdaşlıq xüsusilə önəmlidir. İki ölkə arasında sıx siyasi münasibətlər mövcuddur və bu əlaqələr beynəlxalq platformalarda bir-birini dəstəkləməklə daha da möhkəmlənir. Türkiyə hər zaman Azərbaycanın yanında olub. Müstəqillik qazandıqdan sonra Azərbaycan istər keçmiş Dağlıq Qarabağ münaqişəsi, istərsə də digər mühüm məsələlərdə Türkiyənin davamlı dəstəyini hiss edib. Türkiyə Azərbaycanın daxili və xarici siyasətinin əsas istiqamətlərini dəstəkləyib və bu siyasətin reallaşması üçün mühüm addımlar atıb. Eyni zamanda Azərbaycan da Türkiyə ilə strateji tərəfdaşlıq münasibətlərini daim möhkəmləndirərək qarşılıqlı əməkdaşlığı inkişaf etdirib.

İqtisadi sahələrə nəzər saldıqda görürük ki, burada xüsusilə enerji sektorunda sürətli dinamika müşahidə olunur. Azərbaycan bu gün Türkiyə üçün neft və qazın təchizatı baxımından mühüm rol oynayır. İqtisadi əlaqələr və onun əsas seqmentlərindən biri olan enerji təhlükəsizliyi sahəsində Azərbaycanın Türkiyənin yanında olması böyük infrastruktur və inteqrasiya layihələrinin həyata keçirilməsinə zəmin yaradır. Bu layihələrdən biri də Trans-Anadolu Qaz Boru Kəməri - TANAP-dır. TANAP üç hissədən ibarət olmaqla məhz Türkiyə üzərindən Avropaya qazın ixracını təmin edir. Bununla yanaşı, iki ölkə arasında ticarət, sənaye və kənd təsərrüfatı sahələrində də geniş əməkdaşlıq mövcuddur.

Son zamanlar hərbi sənaye sahəsində də sürətli inkişaf müşahidə olunur. Bu baxımdan, hərbi sahədə əməkdaşlıq iki ölkə arasında mühüm istiqamətlərdən biridir. Hər iki dövlətin müvafiq hərbi qurumları arasında birgə təlimlər keçirilir. Türkiyə hər zaman Azərbaycanın hərbi sənayesinin inkişafında, müdafiə sahəsində mühüm uğurların qazanılmasında böyük rol oynayıb. Eyni zamanda müasir silahlarla təchizat, hərbçilərin təlimi və digər məsələlər Azərbaycanla Türkiyə arasında hərbi sahədə yaxın əməkdaşlığın vacib göstəriciləridir.

Mədəni və humanitar əlaqələr isə ortaq dil, din, tarix və ənənələrə əsaslanır. Bu möhkəm təməllər üzərində qurulan mədəni əlaqələrin dərin kökləri var. Bu sahədə iki dövlət arasında elm, tədris və mədəni mübadilə proqramları həyata keçirilir. Həmçinin genişmiqyaslı təşəbbüslər irəli sürülür və bu hər iki ölkənin bütün təbəqələrini əhatə edən müxtəlif mədəni və sosial layihələr vasitəsilə reallaşdırılır.

Regional əməkdaşlıq məsələsi olduqca vacib bir komponentdir. Bu çərçivədə Türk Dövlətləri Təşkilatı müstəvisində həyata keçirilən fəaliyyətlərin Azərbaycan-Türkiyə tandemi üzərində qurulması mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda İslam Əməkdaşlıq Təşkilatı da daxil olmaqla, müxtəlif beynəlxalq platformalarda Azərbaycan və Türkiyənin vahid mövqedən çıxış etdiyinin şahidi oluruq.




Regional təhlükəsizlik məsələləri, ilk növbədə, iqtisadi müstəvidə - qarşılıqlı ticarət dövriyyəsi və digər sahələrdə özünü göstərsə də, bu, həm də təhlükəsizlik sahəsində və xarici siyasət kursunun müəyyən olunması və icrasında yaxından əməkdaşlığı ehtiva edir. Bu baxımdan əminliklə deyə bilərik ki, Azərbaycan-Türkiyə münasibətləri bu gün strateji tərəfdaşlıq səviyyəsindədir. Bu əlaqələr hər iki dövlət üçün son dərəcə faydalıdır və bütün sahələrdə dinamik inkişaf edir.

Xüsusilə, cənab Prezidentin son Ankara səfəri çərçivəsində aparılan müzakirələrə diqqət yetirmək vacibdir. Azərbaycan və Türkiyə arasında müxtəlif sahələrdə, o cümlədən enerji və təhlükəsizlik sahələrində sıx əməkdaşlıq davam edir.

İki qardaş dövlət - Azərbaycan və Türkiyə arasında enerji əlaqələri qarşılıqlı dəstək prinsipləri əsasında həyata keçirilir. Bu gün əminliklə deyə bilərik ki, bu əməkdaşlıq təkcə iki ölkə üçün deyil, həm də Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi baxımından mühüm rol oynayır. Xüsusilə, Avropa ölkələrinə qaz tədarükünün təşkili istiqamətində bu bağlar etibarlı və strateji əhəmiyyət kəsb edir.

2024-cü il mayın 14-də İstanbulda hökumətlərarası vacib bir müqavilə imzalanmışdır. Bu sənəd təbii qaz sahəsində əməkdaşlıq müqaviləsi kimi tanınır və enerji sahəsində qarşılıqlı əlaqələrin dərinləşdirilməsinə yönəlmişdir.

Növbəti mərhələdə həmin qanun layihəsi 2025-ci ilin yanvar ayında Türkiyə parlamentinin Xarici Əlaqələr Komissiyası tərəfindən təsdiqlənmişdir. Daha sonra sənəd Türkiyə Böyük Millət Məclisinin sədri Numan Qurtulmuş tərəfindən parlamentin gündəliyinə daxil edilərək müzakirəyə təqdim olunmuşdur. Eyni zamanda burada çox vacib bir məqam ondan ibarətdir ki, gələcəkdə bu layihənin inkişaf etdirilməsi nəzərdə tutulur. Bu çərçivədə Türkiyə üzərindən Azərbaycan qazının ötürülməsi ilə yanaşı, Cənub Qaz Dəhlizi və TANAP vasitəsilə Türkmənistan qazının da Avropaya çıxarılması məsələləri gündəmdədir. Bu istiqamətdə müəyyən planlar və fikirlər mövcuddur. Hazırda TANAP-ın illik qaz ötürmə gücü 16 milyard kubmetr təşkil edir. Lakin 2027-ci ilə qədər bu həcmin 31 milyard kubmetrə çatdırılması planlaşdırılır.

Cənub Qaz Dəhlizi həm də Naxçıvan Muxtar Respublikasının enerji təhlükəsizliyinin daha dayanıqlı prinsiplər əsasında təmin olunmasına xidmət edir. Bu günə qədər Naxçıvanın qaz təchizatı əsasən İran üzərindən həyata keçirilirdisə, artıq alternativ qaz kəmərinin mövcudluğu qaz təchizatının diversifikasiyasına imkan yaradır.

İğdır-Naxçıvan qaz boru kəməri Naxçıvanın enerji təminatının daha etibarlı və sabit olmasına kömək edəcək. Eyni zamanda gələcəkdə İran üzərindən idxal olunan qazın həcminin azalmasına gətirib çıxara bilər.

Digər tərəfdən, İğdır-Naxçıvan qaz xəttinin istifadəyə verilməsi, Azərbaycan və Türkiyə arasında enerji əməkdaşlığının vahid strateji xətt üzrə uğurlu şəkildə icrasına xidmət edən layihələrdən biridir. Bu, həmçinin iqtisadi və geosiyasi əlaqələrin gücləndirilməsi, bütövlükdə Azərbaycan-Türkiyə münasibətlərinin inkişafına səbəb olan mühüm bir addımdır. Hətta gələcəkdə bu daha böyük bir layihənin tərkib hissəsi kimi də qiymətləndirilə bilər. Çünki gələcəkdə bölgədə, xüsusən Ermənistan üzərindən yeni kommunikasiyaların açılması mümkündür.

Digər ixrac layihələrinin həyata keçirilməsi də mümkün ola bilər. Gələcəkdə, məsələn, Naxçıvan xətti üzərindən qazın təminatı həyata keçirilməsi mümkündür.

Həmçinin Bakı-Tbilisi-Qars dəmiryolu, Bakı-Tbilisi-Ceyhan neft kəməri türk dünyasının birləşməsinə və münasibətlərin inkişafına xidmət edən vacib addımlardır. Bakı-Tbilisi-Qars dəmiryolu, Orta dəhlizin əsas seqmentlərindən biridir və Şərqdən Qərbə doğru milyonlarla konteynerin təhlükəsiz və sürətli daşınmasını təmin edir. Bununla yanaşı, Bakı-Tbilisi-Ceyhan neft kəməri və Xəzər dənizi üzərindən Türkmənistan və Özbəkistandan "yaşıl enerji"nin Avropaya ötürülməsi ilə bağlı layihələr də böyük strateji əhəmiyyət daşıyır.

Bu layihələr, şübhəsiz ki, türk dünyasının güclənməsinə və birliyinin daha da möhkəmlənməsinə xidmət edəcək. Beləliklə, infrastruktur, nəqliyyat və enerji layihələri, bölgənin inkişafı və dünya miqyasında daha sağlam əməkdaşlıq mühitinin yaradılması baxımından böyük önəm kəsb edir. Bu layihələr, xüsusilə Avrasiya materiki üçün vacib bir əməkdaşlıq mühiti və sülh şəraitində etibarlı tərəfdaşlıq prinsiplərinə söykənən münasibətlərin qurulmasına xidmət edir.

**Azər ALLAHVERƏNOV,**
**Milli Məclisin deputatı.**